4
2017

# GÖYƏRÇİN

İSSN-0207-4710



## RAFİQ YUSİFOĞLU

### LƏLƏTƏPƏ

Çox gəzsəm də dünyanı
Görmədim belə təpə.
Dönüb söz kürsüsünə
Elə bil Lələtəpə.

İgidlər düşmənlərin
Oyacaqdır gözünü.
Tanklar, toplar deyəcək
Bu kürsüdən sözünü.

Bu təpəni geriyə
Qaytardı Mais, Şükür.
Döyüşdən qalib çıxdıq,
Şükür, Allaha şükür!

İgidlər yandırdılar
Sanki sönən çırağı,
Bu təpədə nur saçır
Azərbaycan bayrağı!

Bu təpə bəxtəvərdi,
Bayraq boyu ucalıb.
İgid oğullarımız
Bu bayraqdan güc alıb.

Gendən baxan yağını
Yandır indi, yax indi.
Bu təpədən baxanda
Qələbə çox yaxındı...

Uçmaq istəyirik biz
Çevrilib qızıl quşa.
Bu bayrağa göz dikib,
Qubadlı, Laçın, Şuşa!

### ATALAR SÖZÜ

Onlar tarixdən
Süzülüb gəlib.
Muncuq tək sapa
Düzülüb gəlib.

Müdrik olmasa
Atalar özü,
Mənə kəsb etməz
Atalar sözü.

Bilir böyüklər,
Bilir uşaqlar:
Hər kəlməsində
Onun işıq var.

Söz yol göstərir,
Söz qapı açır,
Sanki günəşdi
Söz şəfəq saçır...

Göstərir bizə
Hər an doğru yol.
Deyir ki, zaval
Yoxdu doğruya.

Hər kəlmə üstdə
Gərək düşünək.
Sözün istisi
Qoymur üşüyək.

Kəlmələr köz tək
İsidir bizi,
Qaynar ocaqdır
Atalar sözü...

Hər kəlməsində
Mənə uyuyur.
Müdrik sözləri
Müdriklər duyur...

### TANRI YANDIRAN OCAQ

Elə yanan yoxdu ki,
Sonu külə dönməsin!
Elə ocaq yoxdu ki,
Yanıb, yanıb sönməsin.

Günəş min, milyon ildi
Yanır, sönməyir ancaq.
Möcüzədir, möcüzə
Tanrı yandıran ocaq...

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI

### HEÇ VAXT SOLMAYAN ÇİÇƏK

Bu çiçək yer üzündə
Çiçəklərin şahıdı.
Bu çiçək neçə-neçə
Əsrlərin şahidi...

Onsuz bu yer üzündə
Bircə gül-çiçək olmaz...
Milyon illərdir açan
Bu çiçək heç vaxt solmaz.

Yeganə çiçəkdi ki
Yaşaya bilir susuz...
Yeganə çiçəkdi ki,
Hamıya çatır pulsuz.

Bu çiçəkdən nur alır
Bütün çiçəklər, güllər.
Bu çiçəksiz zülmətə
Qərq olardı könüllər...

Hər güldən çox sevirəm
Mən bu sarı çiçəyi...
O, Günəşdir, şəfəqlər
Sarı-sarı ləçəyi...

### GÜNƏŞ XƏZƏRDƏ ÇİMİR

Gözünə getmir çimir,
Günəş dənizdə çimir. –
Səhər qalxır Xəzərdən,
Gen olsun bədnəzərdən!

Mat qalmışam hüsnünə,
Gözüm ondan üzülmür.
Dənizdən çıxır, ancaq
Üstündən su süzülmür...